Onu da qeyd edək ki, kitabxanaçılar üçün tamamilə yeni olan İnformasiya texnologiyaları üzrə tədris proqramlarının kitabxana-biblioqrafiya elmi biliklərinin əsasları ilə təmasda tədris olunması yalnız işin xeyrinə olardı. Belə əlaqələr, ABŞ səfirliyinin həyata keçirdiyi tədris proqramının auditoriyasının genişləndirilməsinə, Azərbaycan kitabxana-informasiya mühitinin müasir tələblər səviyyəsinə doğru addımlamasına təkan vermiş olardı. Auditoriya dedikdə, nəzərə almaq lazımdır ki, hazırda kitabxanalarımızda çalışanların çoxunun (əsasən ucqar regionlarda) ixtisasca ali təhsili olan əməkdaşların sayı azdır və ya qeyri-ixtisas sahəsinin mütəxəssisləridir. Kitabxana-biblioqrafiya biliklərinin əsasları haqda təsəvvürü zəif olan həmin kitabxanaçılara isə informasiya texnologiyalarının tətbiqindən danışmaq yersizdir. Bu gün kitabxanalarımızda yeni informasiya texnologiyalarından istifadə etməklə oxucu sorğuları üzrə informasiya axtarışları aparmaq, avtomatlaşdırılmış proqramlarda işləməyi bacaran, ondan baş çıxarmaq mədəniyyətinə malik olan yüksək ixtisaslı kitabxanaçı-biblioqrafların sayı, əfsuslar olsun ki, çox azdır.

Ümumiyyətlə, bu gün respublikamızın kitabxanalarında kitabxana-informasiya işinin vəziyyətini və görülən tədbirlərin həqiqi mənzərəsini əks etdirən, bütün vacib göstəriciləri əhatə edəcək məlumatlara – fondlardan tutmuş kitabxana binalarına qədər, oxuculardan tutmuş texniki avadanlığa, kütləvi tədbirlərdən tutmuş kadrlara qədər - sənədləşdirmənin aparılmasına böyük ehtiyac var. Çünki informasiyalaşdırılmış cəmiyyət quruculuğunda kitabxanaların fəaliyyətini zəruri istiqamətdə inkişaf etdirmək, bu sahədə dəqiq dövlət proqramlarının, strateji planların hazırlanmasına nail olmaq istəyiriksə, malik olduğumuz mövcud bazanı mütləq dəqiq və ətraflı öyrənməliyik, onlar haqqında əlimizdə həqiqi mənzərəni əks etdirən düzgün məlumatlar olmalıdır, əks halda «havada trayektoriya qurmaq» arzusunda olan mühəndisin vəziyyətinə düşmüş olarıq.

Bu mənada, yeni şəraitdə kitabxanaların problemləri onların vəzifələri və görəcəyi işlərin müəyyən edilməsində, kitabxanalarımız üçün yeni inkişaf istiqamətlərinin – Kitabxana-informasiya mərkəzləri şəbəkəsinin təşəkkülü, inkişafı və genişləndirilməsi İnternet portalının yaradılması, kitabxanalarda AİS-in (Avtomatlaşdırılmış İnformasiya Sistemləri) tətbiqi, milli-mədəni irsimizin tərkib hissəsi olan kitabxana fondlarının, milli sərvətin mühafizəsi və konservasiyası həddindən artıq istifadə nəticəsində il-dən-ilə köhnələrək xarab olan milli dövri mətbuat orqanlarının heç olmasa ən əsaslarının mikrofilmləşdirilməsi və s. problemlər üzrə elmi-metodoloji əsasların hazırlanmasına ehtiyac böyükdür. İlk növbədə, respublika kitabxanalarının pasportlaşdırılması, onların kateqoriyalar üzrə sistemləşdirilməsi işi təşkil olunmalı, hər bir kitabxananın malik olduğu texniki avadanlıq, İnternet təminatı, kadr potensialı, ştat imkanları haqqında dəqiq məlumat toplanmalı, lazım gələrsə struktur dəyişiklikləri aparılmalı, yaşlı nəslin kitabxana-biblioqrafiya potensialından istifadə etməklə gəncləri «ön cəbhəyə» çıxarmalı, daha doğrusu yaşlı nəsil ilə gənclik arasında səmərəli əks-əlaqə yaradılmalıdır. Azərbaycan kitabxanalarının informasiyalaşdırılması prosesi məhz milli aspektlərə əsaslanan strateji plan və proqramların işlənilməsindən başlayır. Bu işdə Mədəniyyət Nazirliyinin Kitabxanalar idarəsi öz sözünü deməlidir.

ABŞ dövlətinin Bakıda fəaliyyət göstərən Səfirliyinin «Regional Kitabxanaların İnkişafı Proqramı» və «Kitabxana İnformasiya Mərkəzlərinin yaradılması» layihəsi üzrə, o qədər də çox olmayan bir müddət ərzində, Respublikamızın müxtəlif rayonlarında xeyli iş görülmüş, Kitabxana-İnformasiya Mərkəzləri (KİM) açılmış, müşavirə, seminar, tədris kursları və s. təşkil edilmiş, İnformasiya Mərkəzləri üçün ayrılmış təlimatçılar üçün müntəzəm olaraq məşğələlər, treninqlər aparılmışdır. İndi İnformasiya Mərkəzləri açılmış əksər rayon-





# İnformasiya cəmiyyəti və kitabxanalar

larda ictimaiyyətin informasiya fəallığının əhəmiyyətli dərəcədə artması hiss olunmaqdadır, əhali ödənişsiz olaraq kompüter xidmətlərindən, İnternet əlaqəsindən uğurla istifadə edir. Artıq bir sıra rayonlarda informasiya xidməti sahələrində xeyli təcrübə əldə edilmişdir.

ABŞ-Azərbaycan Təhsil Mərkəzinin kitabxanaların inkişaf etdirilməsinə yönəlmiş təşəbbüslərini, Kitabxanaların Regional İnkişaf proqramının əldə olunmuş nəticələrindən geniş bəhs etməyə ehtiyac hiss olunur.

Əvvəlcə, məlumat üçün oxucularımızın nəzərinə çatdıraq ki, İnformasiya Mərkəzlərinin yaradılması Azərbaycan üçün son onilliklərin ən yeni hadisələrindəndir. Resurs Mərkəzlərini, gələcəyin «İnformasiya cəmiyyəti»nin infrastrukturunu himayə edə biləcək atributlardan biri hesab etmək olar. İndi bütün dünyada onların sayı və fəaliyyət dairələri genişlənməkdədir. Doğrudur Kitabxana-İnformasiya Mərkəzləri hələ elmi bazisə malik deyil, iş təcrübəsi azdır və bu haqda geniş tədqiqatlar, ümumiləşdirmələr aparılmamışdır. Ümumiyyətlə, MDB məkanında və Rusiyada təşəkkül tapan belə mərkəzlərin forma və funksiyalarının artmasına baxmayaraq, onların fəaliyyət standartları, bu sahədə konkret strateji iş planları demək olar ki, hələlik yoxdur.

Bütün bunlara baxmayaraq, KİM regional mədəni siyasət sahəsində öz əhəmiyyətli yerini tutmaqdadır. KİM-lərinin mövcudluğu regionun mədəni həyatında nə kimi rol oynayır? Onlar ictimaiyyətə nə verir? İlk növbədə, fəaliyyəti ilə tanış olduğumuz və araşdırdığımız KİM-lərinin bəzilərinin təcrübəsini ümumiləşdirərək (Ukraynada, Rusiyanın Perm vilayəti, Volqoqrad vilayəti, Udmurtiya) aşağıdakıları qeyd edə bilərik:

- İlk növbədə onlar yeni informasyia texnologiyaları bazasında fəaliyyət göstərir;
- Regionun oxucularının, bütün əhalisinin, idarəetmə və biznes strukturlarının, ictimai təşkilatların kitabxana ilə əməkdaşlıq etməyə meyilli qurumların istifadəsi üçün açıqdır;
- Həm ənənəvi kitab fondlarına, həm də elektron resurslara malikdir. Oxucular onlardan müvəffəqiyyətlə bəhrələnirlər;
- Ölkə daxilində və beynəlxalq səviyyədə əməkdaşlıq və çevik mübadilə əlaqələrinə malikdir;
- KİM əməkdaşları yaxşı təşkil olunmuş, operativ fəaliyyət göstərən komandadır: informasiya bilikləri, yeni informasiya texnologiyalarına yiyələnmişdir, xarici dillərdən istifadə edir, innovasiya layihələri hazırlayır, oxuculara yüksək mədəni informasiya xidməti servisi təqdim edir.

Rayonlarda KİM-lərin yaradılması layihəsi ilə çıxış edən və onu artıq reallaşdırmaqda olan Amerika səfirliyi də bütün bunları nəzərə almışdır. Azərbaycanın belə Mərkəzlərə malik regionlarından bəzilərinin işi ilə qısa da olsa tanış olaq. Respublikamızın müxtəlif regionlarında indi bir-birinin ardınca bu qəbildən maraqlı nümunə ola biləcək kitabxana-informasiya mərkəzləri təşkil olunmaqdadır. Bu xeyirxah təşəbbüsün həyata keçirilməsinə başlandığı vaxtdan az keçməsinə baxmayaraq bu sahədə müəyyən işlər görülmüşdür.

Belə informasiya texnologiyaları bazasında fəaliyyətə başlayan Kitabxana-informasiya mərkəzləri, nəinki aktuallığına görə, həmçinin bu sahədə çalışan subyektlər – kitabxana-biblioqrafiya mütəxəssisləri, muzey və arxiv işçiləri, mədəniyyət şöbələrinin əməkdaşları, professional assosiasiya və birliklər, mədəniyyət idarələrinin fəaliyyəti ilə əlaqədə digər qurumlar və bütün rayon ictimaiyyəti üçün də maraqlıdır. Bu haqda ilkin hipotezimiz üç əsas amilə söykənir:

1. Kitabxana-informasiya mərkəzləri yalnız regionda mədəni əlaqələrin inkişafı üçün müxtəlif resursların konsentrantından ibarət deyil, o özü regional mədəni siyasət resursudur (alətidir).
2. Əsas məsələ ondadır ki, bu mərkəzlər kimin tabeçiliyindədir və onun funksiyası hansı yolla reallaşdırılır. Bu mənada iki istiqamət məlumdur: idarəedici orqanların aləti kimi və professional kitabxanaçı mühitinin koordinasiyası vasitəsi kimi.
3. Kitabxana-informasiya mərkəzlərinin dövlət tabeçiliyini nəzərə alsaq, ona mədəniyyətin idarəolunmasının demokratikləşdirilməsi vasitəsi və mədəniyyətə aid ola biləcək şəbəkə mühitinin formalaşdırılmasına hazırlıq strukturu kimi baxa bilərik.

Haqqında danışdığımız KİM hələlik Azərbaycan mühitində məhdud rayonlarda mövcuddur, məhdud aspektləri əhatə edir və məhz onların fəaliyyətinin əhəmiyyətindən empirik baza kimi danışmalı olacağıq. Bu mənada – Xaçmaz, Qax, Kürdəmir, Qəbələ və s. rayonların KİM-lərinin timsalında qısa məlumat verəcəyik.

**Zakirə Əliyeva,**
***Nizami ad. Ədəbiyyat İnstitutunun dissertantı,***
**Əmin Əfəndiyev,**
***filologiya elmləri namizədi, dosent***

(davamı var)

*PS. Məqalənin əvvəli ötən sayımızda dərc edilmişdir.*